

# Nizami Gəncəvi yaradıcılığı Azadə Rüstəmovanın tədqiqatında

***Fəridə Əzizova***
***Filologiya elmləri doktoru***

***"Nizami Ganjavi's creativity in the research of Azada Rustamov"***

*Azada Rustamova has made valuable scientific contributions with her original researches in the field of Nizami study. Writing about Nizami Ganjavi means talking about this and classical Eastern poetry, which is an integral part of world Islamic culture.*

R.Azadə (Azadə Cəfər qızı Rüstəmova) AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, filologiya emləri doktoru, professor… Orta əsrlər ədəbiyyatının tarixi-nəzəri problemlərinin tədqiqi ilə şöhrət qazanmış alimin ədəbi fəaliyyəti əsasən bu yönümə istiqamətlənmişdi. 300-ə yaxın məqalənin, 20 kitab və monoqrafiyanın müəllifi olmuşdur. Elmi fəaliyyətinin tutumlu hissəsini isə Azərbaycan bədii-estetik fikrinin zirvəsi olan Nizamiyə, bu böyük söz ustadının əlvan çoxşaxəli irsinin öyrənilməsinə həsr etmişdi. Nizami Gəncəvi və R.Azadə… XX əsrin ikinci yarısında Nizami Gəncəvi irsinin tədqiqi haqqında söz açılanda Azadə xanımın elmi fəaliyyəti barədə fikir yürütməmək mümkün olmur.

Özünün orijinal tədqiqatları ilə Azadə xanım nizamişünaslığa dəyərli elmi töhfələr verməyə müvəffəq olmuşdur. Nizami Gəncəvi haqqında yazmaq bu və ya digər dərəcədə dünya islam mədəniyyətinin tərkib hissəsi olan klassik Şərq poeziyasından bəhs etmək deməkdir. Belə geniş və vüsətli elmi tədqiqatların öhdəsindən gəlmək üçün təkcə fitri istedad və şərqşünas təhsili kifayət deyil. Burada dərin fəlsəfi, dini və islami biliklər, geniş dünyagörüşü, zəngin erudisiya, düzgün elmi istiqamət, obyektiv düşüncə tərzi tələb olunur. Məlumdur ki, bütün bunlar gərgin mütaliə və çalışmaların, ağır zəhmət və əməyin, davamlı axtarışların sayəsində əldə edilir. Alimin doktorluq dissertasiyası olan "Azərbaycan epik şeirinin inkişaf yolları (XII-XVII əsrlər)" [1], 1975-ci ildə kitab şəklində [2] çap olunmuş bu əsərində Nizami yaradıcılığı Azərbaycan epik şeirinin inkişafında yüksək zirvə kimi göstərilmişdi və bir çox problemlər ətrafında tədqiq edilmişdi. Onlardan: Nizami epik şeirində həyat fəlsəfəsi, Nizami sənətində insan problemi, xarakter

və qəhrəman, sənət və həqiqət, epik şeir və poetik obrazlar aləmi, Nizami şeirinin janr xüsusiyyətlərini göstərmək olar. Bu əsərdə irs-varis problemi müstəvisində Nizami və onun azərbaycanlı müasirlərinin sənət dünyası tədqiqata cəlb edilmişdir.

Əsərdə Nizami "Xəmsə"si Azərbaycan epik şeirinin zirvəsi kimi təhlil və tədqiq olunur, Nizami şeirində demokratizm və xəlqilik məsələləri nəzərdən keçirilir. Müəllif Nizaminin "Leyli və Məcnun"la "Xosrov və Şirin" poemalarını romantik əsər kimi qəbul edir və romantik şeirdə gözəllik, estetizm kateqoriyasının daşıyıcısı olan qəhrəmanların əsas əxlaqi simasını və xoşbəxt həyat mübarizələrinin hərəkətverici qüvvəsini onların ülvi eşqində görürdü. O, şairin mühitindəki cəmiyyət qanunlarına qarşı çıxdığını onun qəhrəmanlarının Şirin, Fərhad, Leyli və Məcnunun simasında araşdırmış, onların fikir azadlığı uğrunda mübarizənin qurbanı olduqlarını bildirmişdir. Azadə xanımın bu monumental əsərinin elmi əhəmiyyəti və ədəbi-bədii irsimizin janr və nəzəri problemləri görkəmli alimlərimizin sonrakı elmi araşdırmalarında yüksək elmi rəylər almış və təqdir edilmişdir.

Klassik Azərbaycan ədəbiyyatının mövzu və nəzəri problemlərinin tədqiqi sonrakı illərdə də Azadə xanımı məşğul etmiş, bir sıra kitab və məqalələrində müvafiq məsələlər öz şərhini tapmışdır. Onun 1977-ci ildə rus dilində nəşr etdirdiyi "Postup stoletiy" [3] ayrıca olaraq Nizami epik şeirinin janr növləri — roman, epopeya, poema, nağıl, novella, fəlsəfi esselərində insanın əqli-hissi düşüncəsinin, ictimai fikir və fəlsəfi axtarışlarının düyün nöqtəsi olan müdrikliyin sirlərini öyrənmək məqsədi izlənilmişdir.

1979-cu ildə çap olunmuş "Nizami Gəncəvi" (həyatı və sənəti) kitabında [4] alim ilk əvvəl Nizami bədii irsinin ərsəyə gəldiyi tarixi şəraiti diqqət mərkəzinə gətirir. Bədii fikrin təşəkkül amillərini həm ictimai, həm də fərdi aspekt kimi alaraq sənətkarın malik olduğu milli xarakterin dəyərini onun ümumbəşəri əhəmiyyət kəsb etməsində görür. Alimin fikrincə, Nizaminin böyüklüyü məhz onun əsərlərində milliliyin nə dərəcədə bəşəri ideyalar, humanizm məzmunu ehtiva etməsi ilə ölçülür. Azadə xanım Nizamini Yaxın Şərq və Orta Şərq ədəbiyyatlarında müsəlman mədəniyyəti və zehniyyətində sırf Azərbaycan hadisəsi kimi tədqiq edib öyrənməklə yanaşı, onun dünya ədəbiyyatının korifeyləri sırasında durmasını ayrıca bir milli qürur hissi ilə vurğulayırdı. Alim üçün şairdən bəhs etmək – "öz təkrarsız poetik ecazları ilə dünya ədəbiyyatını zənginləşdirən" bir dühadan danışmaq demək idi.

"Nizami Gəncəvi" (həyatı və sənəti) əsərində böyük şairin ömür yolu ilə yaradıcılığının, demək olar ki, bütün aspektləri: onun dünyagörüşü, şairin tarixilik meyarı, xəlqiliyi geniş elmi planda təhlil edilir. Azadə xanım "Xəmsə"də birləşən ayrı-ayrı əsərlərin ideya və məzmunu arxasında şairin, ümumiyyətlə, fikri-bədii ideallarını arayıb tədqiq edir və əsas diqqətini, müşahidələrini şairin həyat amalını, sənət qayəsini təşkil edən ədəbi-estetik keyfiyyətlər üzərində cəmləşdirirdi. Alimin əsərində Azərbaycan və bəlkə də, bütövlükdə dünya nizamişünaslığında bu dahi şairin sənət ecazlarını çağdaş təfəkkür işığında təqdim etməsini və nəzəri-metodoloji araşdırma olmasını zaman özü təsdiq etdi. Əsərdə Nizami humanizminin ictimai-bədii-əxlaqi əsasları, obrazın psixoloji təqdimi, Nizami şeirinin üslub xüsusiyyətləri, Nizami sənətkarlığının tədqiq tarixi və nizamişünaslıqda az işıqlandırılan ədəbi-nəzəri problemlər araşdırılırdı. Əsərdə onun obraz və xarakterlərinin psixoloji dinamikasının izlənilməsi, Nizami üslubunun şərhi Yaxın və Orta Şərq poeziyasında bir kəşf kimi təqdim edilmişdir. Nəzəri yön alimin aparıcı istiqaməti idi və orta əsrlər əsərlərinin belə nəzəri yönümdə təqdimini Azərbaycan ədəbiyyatşünaslığında yeni istiqamət kimi

dəyərləndirmək mümkündür. R.Azadə Nizamiyə həsr etdiyi əsərlərində şairin sənətinin milli ruhuna xüsusi diqqət yetirməyi vacib bilmiş, öz görkəmli sələflərinin fikirlərini özünəməxsus şəkildə davam etdirmişdir.

Alimin 1980-ci ildə "Elm" nəşriyyatında çap olunmuş "Nizami Gəncəvi" [5] əsərində Nizami dövründəki Azərbaycan ictimai-siyasi-mədəni həyatına qısa bir ekskurs edilərək şairin yaradıcılığının renessans xisləti əsaslandırılır. Nizami sənəti ümumdünya renessansı işığında tədqiqata cəlb edilir və bu müstəvidə Nizaminin şeir dünyasının ecazkarlığı açıqlanır. Şairin obyektiv real aləmə və onun qanunauyğunluqlarına mütəfəkkir baxışı, humanizmi, yaradıcılığındakı bəşəri keyfiyyətlər və poetikası kimi problemlərə nəzər salınır. Nizami çevrəsində nəzəri-metodoloji axtarışlar, fəlsəfi-estetik ümumiləşdirmələr, tarixilik ilə müasirliyin vəhdəti – R.Azadənin elmi-tədqiqi fəaliyyəti məhz bu xüsusiyyətlərlə səciyyəvidir. Ədəbiyyat nəzəriyyəçisi və ədəbiyyatşünas səriştəliyi burada bir-birini tamamlayırdı.

Nizami yaradıcılığında kamil insan–Tanrı münasibətləri alimin 1981-ci ildə rus dilində [6] nəşr olunmuş "Nizami Gəncəvi" kitabında xüsusi məzmun kəsb edir. R.Azadənin yaradıcılıq palitrasında Nizamidə məhəbbət konsepsiyası, Nizami və sufizm, Nizami və əxilik kimi nizamişünaslığın bütün mərhələləri üçün vacib olan problemlər də mühüm yer tutur. Alimin Nizami şeirinin fəlsəfi -irfani axarı yönümündə yürütdüyü mühakimələr xüsusilə diqqəti cəlb edir. Bir-birinin ardı ilə dərc olunmuş kitablarda (1980, 1981, 1983 illərdə) [5, 6, 7] Nizami irsinin aktual problemləri bir çox bucaqlardan öz obyektiv həllini tapmışdır. Bu əsərlərdə Nizami şeirinin folklor əlaqələri, Nizami sənətində xəlqilik və tarixilik, Nizami poeziyasının fəlsəfi mahiyyəti kimi məsələlər ətrafında alim konseptual əhəmiyyətli mülahizələr yürütmüşdür.

1999-cu ildə alimin "Nizami və onun poeziya sələfləri" adlı kitabı [8] dərc olunur. Burada müəllif göstərir ki, Nizaminin süjet və obrazlarını qədim tarix, salnamə və yazılı əfsanələrdə axtarmaq lazımdır. O, Gəncə ustadının öz möhtəşəm "Xəmsə"sində söykəndiyi və ya söykənə biləcəyi ilkin qaynaqlarına, bu qaynaqların birinin digəri ilə, bütövlükdə isə Nizami yaradıcılığı ilə tarixi-tipoloji yönümdə əlaqələrinə nəzər salır. Əsərdə Nizaminin sələflərinin (Ünsüri, Əyyuqi, Gürgani) yaradıcılıq palitrası araşdırılır. Tədqiqatın önəmli bir fəslini "Sirlər xəzinəsi" və Yaxın Şərq ədəbiyyatında onun tipoloji sələfi "Hədiqətül-həqaiq" (XI əsr – Sənai) əsərlərinin müqayisəli təhlili təşkil edir. Hər ikisi üçün ilk qaynaq – Quran və Sufi vəz və moizələrindən irfani şeirə gedən yoldan bəhs olunur. Sələf və xələfin ilkin qaynaqlara münasibəti araşdırılır. "Sirlər xəzinəsi" "Hədiqətül-həqaiq"dən sonra idi. Lakin o heç də nəzirə deyildi, özündən sonra isə saysız nəzirələrə təkan verdi, yüzlərlə sənətkar Sənainin deyil, Nizaminin ardıcılı oldu. Alim sufizmin Nizami yaradıcılığında mövqeyi probleminə də toxunur. Sufizmin Nizami dünyagörüşünün əsası deyil, bəhs etdiyi neçə-neçə fəlsəfi cərəyanlardan biri olduğunu diqqətə çatdırır. "Sufi simvolikasından da Nizami əsərlərində çox zaman sənətkar mövqeyindən çıxış edərək poetik fiqur, metafora, alleqoriya kimi istifadə edirdi" [8, s.84].

Tədqiqatçı alim ömrünü həsr etdiyi nizamişünaslıq sahəsində bir-birindən dəyərli elmi məqalə və fundamental nəşrləri ilə tez-tez oxucuların görüşünə gəlirdi. Onun növbəti əsərlərindən biri 2000-ci ildə nəşr olunan "Nizami Gəncəvi. "Divan"dan bir gülçin" adlanan kitabı idi [9]. Bu əsər Azadə xanımın ədəbiyyatşünaslıq (nizamişünaslıq) səriştəliyi ilə yanaşı, mətnşünaslıq kimi ağır, səbirli və diqqətli əmək tələb edən sahəsində də xüsusi mövqeyinin təsdiqinə çevrilmişdir. Nizami Gəncəvi divanının poetik nümunələrinin toplanması, dəqiqləşdirilməsi nizamişünaslıq qarşısında duran mühüm problemlərdən biri olan və böyük zəhmət tələb edən görkəmli yaradıcılarının başladığı bir sahəyə müraciət etmək idi. Bu prosesdə çətinliyi artıran cəhətlərdən biri də

ondan ibarət idi ki, Nizami əsərlərinin dünya kitab evi və muzeylərində yüzlərlə əlyazma nüsxələri mühafizə edilir. Lakin onların çoxu Nizami qələmindən çıxmayan əlavə beytlər, yaxud ixtisarlarla gəlib bizə çatmışdır. Belə əyintilərin tədqiqlərə keçərək yanlış elmi konsepsiyalar yarada biləcəyi təhlükəsinin qarşısını almaq üçün Nizami mətnləri lüzumsuz əlavə və əskiltmələrdən mümkün qədər təmizlənmiş, saflaşdırılmış idi.

Alimin redaktə işindən də bəhs etmək lazımdır. Bu barədə onun aspirantı olmuş AMEA-nın həqiqi üzvü T.Kərimlinin fikirlərini Azadə xanıma həsr etdiyi yazısından çatdırmaq istərdim: "Ədəbiyyat tarixçiliyi ədəbiyyatşünaslıq elminin elə bir nüfuzlu sahəsidir ki, yalnız kamil alimlər bu sahəyə girişir və sanballı əsər ərsəyə gətirməyə nail olurlar. Azadə xanım da bu cür alimlərin səviyyəsinə qalxmışdı və istər ədəbiyyat tarixinin oçerk və icmallarını yazmaqda, istərsə də həmkarlarının çox vaxt "çiy" şəkildə təqdim etdiyi materialları redaktə etməkdə misli-bərabəri yox idi. "Azadə xanım redaktə prosesində bir çox materialları yenidən yazmağa məcbur idi və öz elmi səviyyəsinə yüksəldərək əvvəlki yazını tanınmayacaq hala salırdı. Təəssüflər ki, üzərində bu qədər ağır zəhmət çəkdiyi və yüksək səviyyədə çapa təqdim etdiyi "Azərbaycan ədəbiyyatı tarixi"nin II-III cildlərinin [10, 11] işıq üzü görməsini Azadə xanım görə bilmədi. Amma əminliklə deyə bilərik ki, Azadə xanımın Azərbaycan mediyevistikasına bəxş etdiyi əvəzsiz inciləri tərəzinin bir gözünə və Azadə xanımın çoxcildli "Azərbaycan ədəbiyyatı tarixi"nin ikinci və üçüncü cildlərini də o biri gözünə qoysaq, yenə də ədəbiyyat tarixləri olan göz ağır gələr" [12, s.6-11].

Alimin fikirlərinin kvintessensiyası ömrünün son məqamlarınadək gözlədiyi "Mənəvi dünənimiz bu günün işığında" adlı icmal-oçerk, ədəbi portret və nəzəri problemləri əhatə edən irihəcmli məqalələr toplusunda cəmləşib [13]. Klassiklərimizin ictimai-bədii fikir tarixinə həsr etdikləri sənət möcüzələrini üzə çıxartmaq, incə bir tədqiqatçı səriştəsi ilə nadir inciləri elmi təhlil süzgəcindən keçirmək, ədəbiyyatımızın təkamül dinamikası və qanunauyğunluqlarını incələmək yolunda Azadə xanım bu əsərində əsl fədakarlıq göstərdi.

Orta əsrlər islam Şərqi ədəbi prosesinin fundamental məsələləri ilə məşğul olan alim ən erkən dövrləri – mədəni keçmişimizin əsas məqamlarını, XVII-XVIII əsrlər, yeni dövr və nəhayət, müasir ədəbiyyatımızda bir sıra konseptual problemləri oxucusuna təqdim etdi. Burada elmi fəaliyyətinin tutumlu bir hissəsinin Nizami yaradıcılığına istiqamətləndirilməsi izlənsə də, alimin yaradıcılıq sferasının daha geniş olduğu təsbitlənir.

Bu topluda da alimin "XII əsr "Azərbaycan səpkisi"nin Nizami zirvəsi", "Xəmsə"də alleqoriya, rəmz və simvollar", "Hədiqətül-həqaiq" və "Məxzən ül-əsrar", "Nizamişünaslıq. Nailiyyətlər, kəsirlər və qarşıda duran vəzifələr", "Nizami Gəncəvi yaradıcılığı Y.E.Bertels tədqiqatında", "Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami" əsəri", "Nizami konfransı", "Şair-tərcüməçi hünəri (X.Rzanın Nizamidən çevirmələri)", "Leyli və Məcnun" film-operasının kino librettosu haqqında fikrim" və sair Nizamiyə həsr olunmuş tədqiqləri böyük maraq doğurur. Bu gün orta əsrlər islam Şərqi ədəbi prosesinin fundamental problemləri ilə məşğul olan alimlərin sayı, ümumiyyətlə, dünya şərqşünaslığında barmaqla sayılacaq qədər azlıq təşkil edir. R.Azadə xanım onlardan biri idi. R.Azadənin tədqiqatçı marağının ən çox diqqət mərkəzində məhz Nizami Gəncəvi sənəti və bu sənətlə əlaqədar şərqşünaslıq elminin qarşısında duran problemlər olmuşdur. O, alim bacarığını da məhz bu sahədə nümayiş etdirmişdir. Nizamiyə həsr olunmuş əsərlərdə o, ilk dəfə olaraq tipoloji-ədəbi qarşılaşdırmalar və müqayisələr yolu ilə Şərqdə mövcud "Fərhad və Şirin", "Leyli və Məcnun" və s. əfsanələrin təşəkkül və inkişaf xəttini araşdırma predmetinə çevirmiş və əhəmiyyətini bu gün üçün də saxlayan, neçə-neçə tədqiqi əsərin yaranmasına meydan

verən qiymətli elmi-nəzəri nəticələr əldə etmişdi. Alim Nizami qəhrəmanları – Şirin, Xosrov, Fərhad və sair obrazlarının tarixi-əfsanəvi prototiplərini üzə çıxartmaq məqsədilə onlarla ən qədim mənbə və məxəzləri araşdırmışdı. Feofilakta Simokatta (VI əsr), Cahizin (IX əsr), Təbəri (X əsr), Səalibi (XI əsr), Yaqut əl-Hamavi (XII əsr) və başqa mənbələrdən çıxış edərək, "Xosrov və Şirin" əhvalatının fraqmentlər halında mövcudluğunu VI əsrin axırlarından həm şifahi, həm də yazılı şəkildə müxtəlif variantlarda intişar tapdığını sübuta yetirmişdir. R.Azadə Nizami irsi ilə əlaqədar heç bir tədbirə biganə yanaşa bilmirdi. Nizaminin tədqiqi yönümündə alimin bəzi narahat məqamları da az deyildi. "… nə gizlədək, nöqsanlarımız da çoxdur", – deyə R.Azadə öz təəssüfünü bildirirdi.

Tədqiqatçı üçün Nizamidən danışmaq "öz təkrarsız poetik ecazları ilə dünya ədəbiyyatını zənginləşdirən" bir dühadan danışmaq demək idi [13, s.475-490]. İlk dəfə olaraq Nizami romantizmində estetik fikrin gözəllik və eybəcərlik kateqoriyası, ümid və arzu konsepsiyası, ideal və antiideal anlamı, şairin əsərlərində süjet və kompozisiya nisbəti, iç aləmin – "mən"in poetikası, obrazın psixoloji təqdimi, Nizami bədii tərtiblərində inteqrasiya və differensasiya hadisəsi, epik mətndə lirik vüsət və s. ədəbi-nəzəri problemlər çevrəsində xüsusi əhəmiyyət kəsb edən mühakimələr yürüdülür və Nizami yaradıcılığı işığında onlar öz maraqlı, obyektiv elmi həllini tapır.

Nəzəri yön yalnız R.Azadə monoqrafiyalarının deyil, demək olar ki, onun əksər məqalələrinin də aparıcı istiqaməti olmuşdur.

Obraz və xarakterin psixoloji dinamikası Nizami üslubunun Yaxın Şərq poeziyasında kəşfi idi. Nizami əsərlərində şairin yaşayıb-yaratdığı dövrün romantik naxışlara, romantik boyalara çulğanmış istək və meylləri, arzu və nisgilləri öz ifadəsini tapır. Bu əsərlər həm lirikanı, həm dramatizmi, həm fəlsəfi mühakimə və ümumiləşdirmələri, həm də əxlaqi-etik şeirə məxsus xüsusiyyətləri özündə birləşdirir. "Musiqi, heykəltəraşlıq, rəssamlıq, bədii dekor sənəti, xalq təfəkkürünün poetik nümunələri – əfsanələr, rəvayətlər, məsəllər – estetik fikrin bu əlvan sahələri Nizami üslubunda heyrətamiz bir tərzdə bir-birinə calaşır, struktura hopur, aparıcı bədii mətndə əridilir" [14, s.51]. Orta əsrlər şeirimizin bu yönümdə təhlilini ədəbiyyatşünaslığımızda yeni istiqamət kimi dəyərləndirmək mümkündür.

Zamanının siyasi-ictimai-tarixi səbəbləri üzündən orta əsrlərin bir çox sənətkarları kimi Nizaminin də fars dilində yazıb-yaratdığı məlumdur. Lakin alim sənətkarın əsərlərinə "türkanə ruhun hakim olduğunu" da təsdiqləyir. Elə Nizaminin özü də şeirini "türkanə nəzm" adlandırır, cəfakeş Məcnununa "ərəb libasında türk" kimi qiymət verir. R.Azadə Nizamiyə həsr etdiyi əsərlərində Nizami şeirinin milli ruhuna da xüsusi diqqət yetirməyi vacib bilmiş, görkəmli sələflərinin fikirlərini özünəməxsus şəkildə davam və inkişaf etdirmişdir.

Alimin öz müəllimlərinə söylədikləri sözləri onun özünə ünvanlamaq istərdim: "Xalqına çatdıra bildiyin mənəvi miras qədirbilən yurdunun can və qan yaddaşında sənin özünə əbədilik qazandıracaq". O, xalqımıza tanrı tərəfindən bəxş edilən nadir zəka ulduzu idi, yalnız zəka ulduzu deyil, həm də gözəllik ulduzu, sözün əsl mənasında ideal Nizamidən gələn Azərbaycan qadını obrazının canlı timsalı idi. Ulduz isə sönməz, axıb keçər…

*https://literature.az/?lang=aze&page=698&newsId=116378*